

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 20 (24.506)

30 may 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi




## Müasir, qalib Azərbaycana uzanan dövlətçilik yolu

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyib: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhvali-ruhiyyəsi yaratmış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır". Azərbaycan tarixinin səhifələri azadlıq, müstəqillik uğrunda çətin və şərəfli mübarizələrlə zəngindir. Ötən əsrdə iki dəfə müstəqillik qazanmaq xoşbəxtliyi yaşayan Azərbaycan bu yolda minlərlə şəhid verib, parçalanıb yarımcan edilsə də, illərlə əsarətdə yaşamaq məcburiyyətində qalsa da, yenə sınmayıb, əyilməyib, məqam çatan kimi öz istəyini reallaşdırıb. Müstəqillik arzusunu, istiqbal duyğusunu həmişə ürəyində yaşadan xalq onun reallığa çevrilməsi üçün əlverişli məqama ilk dəfə 1918-ci ildə çatdı. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək tam dövlət hakimiyyətinə malik Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını bəyan edib. Müsəlman Şərqinin və Türk dünyasının ilk cümhuriyyəti bir çox xarici dövlətlər tərəfindən tanınıb, dövlət təsisatları yaradılıb. Mövcud olduğu müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti bütün vətəndaşlarını konstitusion hüquqlarla təmin edib. Daxili quruluşundan asılı olmayaraq, bütün ölkələrlə münasibətləri faydalılıq əsasında yaratmağa çalışıb.*

Səhifə ⇨ 5

### Azərbaycanın aqrar siyasətində yeni mərhələ: modernləşmə, dayanıqlı inkişaf və strateji hədəflər



Səhifə ⇨ 2

### Müstəqillik Günündə Qarabağ səfəri: dövlətçiliklə tarixi zəfərin müfəssəl vəhdəti



Səhifə ⇨ 3

### Ordumuzun Günnüt zəfəri



Səhifə ⇨ 4

### 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür: Bütöv Vətənin xoşbəxt uşaqları



Səhifə ⇨ 9

### Dağların qoynundakı möcüzə: Əshabi-kəhf



Səhifə ⇨ 10



# Azərbaycanın aqrar siyasətində yeni mərhələ: modernləşmə, dayanıqlı inkişaf və strateji hədəflər

*Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə hər iki rəhbərliyi dövründə Azərbaycanda kənd təsərrüfatı dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Ulu Öndərin layiqli siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi və birbaşa nəzarəti ilə son iyirmi ildə bu sahənin inkişafı məqsədilə həyata keçirilən ardıcıl Dövlət proqramları kəndlərin sosial-iqtisadi simasını dəyişib, kənd təsərrüfatının modernləşməsinə və ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə verib. Bununla belə son illərdə müşahidə olunan müasir inkişaf perspektivləri yeni yanaşmaların və daha çevik idarəetmə mexanizmlərinin tətbiqini zəruri edir. Bu baxımdan, kənd təsərrüfatının inkişafına dair hazırlanan yeni Dövlət Proqramı ölkənin aqrar siyasətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə dövlətimizin başçısı aqrar sahənin hazırkı vəziyyətini geniş şəkildə təhlil edərək yeni proqramın əsas hədəflərini, qarşıda duran prioritet vəzifələri və bu sahənin daha dinamik inkişafı üçün atılacaq strateji addımları müəyyənləşdirdi...*

### Dövlət dəstəyi və regional inkişaf proqramları fonunda aqrar tərəqqi

Azərbaycanda son 20 ildə aqrar sahənin inkişafı ilə bağlı məsələləri təhlil edən zaman 2004-cü ildə qəbul edilən ilk regional inkişaf proqramını xüsusi vurğulamaq lazımdır. Hansı ki həmin proqram o dövrdə Azərbaycanın kənd təsərrüfatında dönüş nöqtəsi hesab olunmalıdır. Həmin vaxt bölgələrdə qazlaşdırma, demək olar ki, yox səviyyəsində idi, elektrik enerjisi ilə bağlı ciddi problemlər yaşanırdı, avtomobil yolları yararsız vəziyyətdə, su təminatı isə tükənmək üzrə idi. Sonrakı illərdə həyata keçirilən ardıcıl regional inkişaf proqramları nəticəsində bu problemlərin böyük hissəsi aradan qaldırıldı. Bu gün işğaldan azad edilmiş ərazilər istisna olmaqla ölkədə qazlaşdırma səviyyəsi 96 faizə çatıb, elektrik təminatında heç bir problem yoxdur, əksinə, Azərbaycan enerji ixrac edən ölkəyə çevrilib. Respublikamız bu gün 16 ölkəyə təbii qaz ixrac edir. Bundan başqa, son illərdə minlərlə kilometr avtomobil yolu çəkilib, iri su anbarları və kanallar tikilib, kəndlərdə sosial infrastruktur – məktəblər, xəstəxanalar, xidmət obyektləri yenilənib. Beləliklə, bütün bunlar kənd təsərrüfatının inkişafı üçün möhkəm baza formalaşdırıb.

Kənd təsərrüfatının inkişafında dövlət dəstəyi və subsidiyalar mühüm rol oynayır. Bu baxımdan, Azərbaycan dünyada kənd təsərrüfatına genişmiqyaslı subsidiyalar tətbiq edən nadir ölkələrdən biridir. Prezident İlham Əliyev müşavirədə bu məsələyə xüsusi toxunaraq ölkəmizdə tətbiq edilən subsidiya mexanizmini yüksək qiymətləndirdi: ***“Onu da bildirməliyəm ki, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmlərini tətbiq edir. Düzdür, burada da təkmilləşmə üçün imkanlar var və bu edilməlidir. Bu barədə də danışılacaq. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri. Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir”.***

### Aqrar inkişaf və ərzaq təhlükəsizliyi: çağırışlar və hədəflər

Dövlətimizin aqrar siyasətinin başlıca prioritetlərindən hesab olunan subsidiyalaşma fermerlərin işini xeyli asanlaşdırır, onların istehsala marağını artırır və kənd təsərrüfatının dayanıqlı inkişafını təmin edir. Fermerlərə yanacaq və gübrə güzəştləri təqdim edilir, güzəştli kreditlər ayrılır, metodiki dəstək göstərilir. Bu yanaşmanın nəticəsi olaraq vaxtilə zəifləyən bir sıra ənənəvi sahələr yenidən dirçəlib. Dövlət başçısının müşavirədə də qeyd etdiyi kimi, pambıqçılıqda istehsal 20 min tondan 360 min tona qədər yüksəlib, baramaçılıq və ipəkçilik yenidən inkişaf etməyə başlayıb, fındıqçılıq üzrə Azərbaycan dünya miqyasında ön sıralarda – 3-4-cü yerdə qərarlaşıb. Üzümçülük, sitrusçuluq və intensiv bağçılıq kimi sahələrdə də əhəmiyyətli irəliləyiş əldə olunub. Bununla belə qlobal miqyasda baş verən proseslər kənd təsərrüfatına yeni çağırışlar yaradır. Dünyada gedən müharibələr, nəqliyyat zəncirlərinin qırılması, enerji böhranı və iqlim dəyişiklikləri bir daha göstərir ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyini təmin etməlidir. Azərbaycan bəzi məhsullar üzrə özünü tam təmin etsə də, müəyyən sahələrdə asılılıq qalmaqdadır. Misal üçün qeyd etmək olar ki, ölkə buğdaya olan tələbatının yalnız 55 faizini daxili istehsal hesabına ödəyir. Hər il ölkəyə 1 milyon tondan çox buğda idxal olunur ki, bu da ərzaq təhlükəsizliyi baxımından ciddi siqnaldır. Bitki yağları, kərə yağı, dənli-paxlalılar və bəzi heyvandarlıq məhsulları üzrə də idxaldan asılılıq mövcuddur. Digər tərəfdən, tərəvəz, meyvə, bostan məhsulları, yumurta, şəkər və duz kimi sahələrdə Azərbaycan artıq yalnız daxili tələbatı ödəməklə kifayətlənmir, həm də ixrac həyata keçirir. Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bütün bu mənfi və müsbət məqamlara toxunaraq yeni Dövlət Proqramında əsas hədəflərin ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, idxaldan asılılığın azaldılması, məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi və kənd təsərrüfatının rəqabət qabiliyyətinin yüksəldilməsi olduğunu vurğulaması gələcək inkişaf üçün mühüm yol xəritəsidir.

Kənd təsərrüfatının inkişafı təkcə iqtisadi məsələ deyil, həm də sosial sabitlik və regionların gələcəyi ilə bağlı strateji əhəmiyyət daşıyan bir sahədir. Müasir dövrdə bütün dünyada müşahidə olunan urbanizasiya prosesi, yəni insanların kəndlərdən şəhərlərə axını Azərbaycanda da müəyyən risklər yaradır. Bakıda keçirilən XIII Ümumdünya Şəhərsalma Forumunda da bu məsələ xüsusi diqqət mərkəzində olub. Dövlətimizin başçısı kənd təsərrüfatı ilə bağlı müşavirədə də həmin məsələyə toxunaraq vurğulayıb ki, ötən illərdə icra edilən Regional İnkişaf proqramlarının əsas məqsədi bölgələrdə hərtərəfli şərait yaratmaq idi. Beləliklə, insanlar öz doğma yurdlarında qalsın, dədə-baba torpaqlarında çalışsın, ənənəvi fəaliyyət sahələrini davam etdirsin və layiqli həyat sürsünlər. Proqramların hədəfləri sırasında bölgələrdə həm əkin-biçin, həm turizm imkanlarının genişləndirilməsi, həm də xidmət sektorunun yüksək səviyyədə təşkil olunması yer alıb. Beləcə, kənd təsərrüfatının inkişafı yalnız ərzaq təhlükəsizliyinin təmin olunmasına deyil, həm də kəndlərin dirçəldilməsinə, regionların sosial-iqtisadi cəhətdən gücləndirilməsinə və insanların öz torpaqlarına bağlılığının daha da möhkəmlənməsinə xidmət edir. Sitat: ***“Onu da bildirməliyəm ki, biz Regional İnkişaf proqramlarını icra etdikcə sosial infrastruktur layihələrini də uğurla icra etmişik. Bizim bütün rayon mərkəzlərində, şəhərlərdə müasir xəstəxanalar var, məktəb tikintisi geniş vüsət almışdır. Düzdür, hələ yararsız vəziyyətdə məktəblər var, amma onların sayı ildən-ilə azalır. Bizim 4 mindən çox məktəbimiz var, bəlkə də, bir az az, bir az çox. Onların, təqribən, deyə bilərəm ki, 80-85, bəlkə də, 90 faizi təmir edilib, nə qədər məktəb tikilib. Ona görə bölgələrdə məşğulluğu artırmaq və insanları torpağa daha bağlı etmək üçün biz kənd təsərrüfatının inkişafına yeni təkan verməliyik”.***

### Aqrar modernləşmə: texnologiya, su ehtiyatları və investisiya

Aqrar sahədə inkişafa təkan verən yeni yanaşmalardan biri torpaqlardan daha səmərəli istifadə edilməsidir. Hər bir torpaq sahəsinin dəqiq analizi aparılmalı, hansı məhsulun hansı ərazidə daha məhsuldar yetişdiriləcəyi müəyyən edilməlidir. Bu məqsədlə elektron xəritələşdirmə, peyk müşahidələri, rəqəmsal analiz sistemləri və süni intellekt texnologiyalarından istifadə nəzərdə tutulur. Belə yanaşma həm məhsuldarlığı artıracaq, həm də fermerlərə daha düzgün qərar verməyə imkan yaradacaq. Digər tərəfdən, su təminatı da kənd təsərrüfatının inkişafında əsas məsələlərdən biri olaraq qalır. Son illərdə Taxtakörpü, Şəmkirçay və digər iri su anbarlarının tikilməsi, kanalların yenidən qurulması bu sahədə mühüm irəliləyiş yaradıb. İşğaldan azad olunmuş ərazilərdə yerləşən su ehtiyatlarının yenidən istifadəyə verilməsi də böyük potensial deməkdir. Qarabağda və Şərqi Zəngəzurda, ümumilikdə, 25 faiz su ehtiyatları formalaşır. Onlardan səmərəli istifadə etməklə həm o bölgəni, həm də digər bölgələri su ilə təmin etmək mümkün olacaq. Qarşıdakı dövrdə yeni su anbarlarının tikintisi, Şirvan və Qarabağ kanallarının modernləşdirilməsi, müasir suvarma sistemlərinin daha geniş tətbiqi məhsuldarlığın artmasına ciddi təsir göstərəcək.

Qeyd edilən bütün bu və digər infrastruktur quruculuğunun timsalında məhsuldarlığın artırılması yeni proqramın əsas hədəflərindəndir. Hazırda taxıl üzrə orta məhsuldarlıq hər hektara 3,2 ton təşkil edir və məqsəd bunu 5 tona çatdırmaqdır. Pambıqçılıqda da məhsuldarlıq son illərdə xeyli artsa da, qarşıya daha yüksək nəticələr qoyulub. Eyni zamanda intensiv bağçılığın genişləndirilməsi, yeni istixana komplekslərinin yaradılması, soyuducu anbarların tutumunun artırılması və emal sənayesinin inkişafı da nəzərdə tutulur. Bu prosesdə özəl sektorun və xarici investorların rolu xüsusi əhəmiyyət daşıyır. Dövlət tərəfindən kənd təsərrüfatının inkişafı üçün milyardlarla manat vəsait ayrılması planlaşdırılır və eyni zamanda bu sahədə daha böyük irəliləyişə nail olmaq üçün sahibkarların fəallığı vacibdir. Xüsusilə idxaldan asılı olan məhsulların yerli istehsalının artırılması, emal müəssisələrinin yaradılması və ixrac imkanlarının genişləndirilməsi üçün yeni investisiyalara ehtiyac var. Prezident İlham Əliyev kənd təsərrüfatı ilə bağlı müşavirədə bu istiqamətlərin hər birinin strateji əhəmiyyət daşıdığını vurğulayaraq qarşıya qoyulan hədəflərə çatmaq üçün kompleks və ardıcıl tədbirlərin həyata keçirilməsinin vacibliyini qeyd etdi.

Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə dövlət başçısının dərinməzmunlu nitqi belə deməyə əsas verir ki, Azərbaycan kənd təsərrüfatında son illər mühüm uğurlar qazansa da, qarşıda daha böyük məqsədlər dayanır. Bu baxımdan, 2026-2030-cu illəri əhatə edən Dövlət Proqramı kənd təsərrüfatını yeni inkişaf mərhələsinə çıxarmağı hədəfləyir. Məqsəd təkcə istehsal həcmlərinin artırılması deyil, eyni zamanda kənd yerlərinin inkişaf etdirilməsi, əhalinin torpaqla bağlılığının gücləndirilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və Azərbaycanın regionda aqrar sahədə daha güclü mövqeyə malik ölkəyə çevrilməsidir. Bu hədəflərə nail olmaq üçün dövlət qurumları, fermerlər, sahibkarlar və investorlar arasında sıx əməkdaşlıq mühüm əhəmiyyət daşıyır və kənd təsərrüfatının davamlı inkişafı məhz bu birgə fəaliyyət nəticəsində təmin edilə bilər. Prezident İlham Əliyevin dediyi kimi: ***“Bir müddət bundan əvvəl Prezident Administrasiyasına, Hökumətə göstəriş verildi ki, kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın, qəbul edilsin, hərtərəfli, əhatəli olsun. Həm dövlət investisiyaları, həm özəl sektor tərəfindən cəlb ediləcək investisiyaları özündə ehtiva etməlidir. Proqram çox konkret və qısamüddətli olmalıdır. Bu gün müzakirə edəcəyimiz məsələlər bu proqramın qəbul edilməsi və icrası ilə bağlı olacaq. Mən əminəm ki, bu proqram icra edildəndən sonra bizim əsas hədəflərimiz tam yerinə yetiriləcəkdir”.***

**Nail ƏSGƏROV**

# Müstəqillik Günündə Qarabağ səfəri: dövlətçiliklə tarixi zəfərin müfəssəl vəhdəti



*Prezident İlham Əliyevin işğaldan azad edilmiş bölgələrə hər səfəri həm dərin siyasi mesajlarla yadda qalır, həm də müstəqil, qalib Azərbaycan dövlətinin ardıcıl bərpa və quruculuq siyasətinin real nəticələrini nümayiş etdirir. Bu səfərlər artıq azad olunmuş torpaqlarda həyatın yenidən bərpasının, sosial infrastrukturun formalaşdırılmasının və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının praktik təcəssümünə çevrilib. Tarixi zəfərimizin rəmzi olan Şuşa isə Böyük Qayıdış siyasətində xüsusi yer tutur.*

*Şuşada aparılan genişmiqyaslı infrastruktur layihələri, tarixi-mədəni abidələrin bərpası, yaşayış və sosial obyektlərin inşası şəhərin əvvəlki şöhrətinin qaytarılması istiqamətində atılan mühüm addımlar kimi qiymətləndirilir. Bütün bunlar, ümumilikdə, azad edilmiş ərazilərdə həyatın sürətlə canlandığını, dövlətimizin həmin torpaqlarda dayanıqlı məskunlaşma və inkişaf modeli formalaşdırdığını göstərir. Bu baxımdan, Prezident İlham Əliyevin Qarabağa, o cümlədən də Şuşa rayonunun Böyük Qaladərəsi kəndinə səfəri həm siyasi, həm də ideoloji baxımdan xüsusi əhəmiyyət daşıyır. Səfərin məhz 28 May – Müstəqillik Günündə həyata keçirilməsi onun simvolik məzmununu daha da gücləndirir. Bu, bir tərəfdən Azərbaycan dövlətçiliyinin tarixi köklərinə və milli istiqlal ənənələrinə bağlılığın nümayişidirsə, digər tərəfdən müstəqil Azərbaycanın ərazi bütövlüyünü tam təmin etmiş qalib dövlət kimi yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.*

***Böyük Qaladərəsi: Böyük Qayıdışın real təzahürü***

Böyük Qaladərəsi kəndində aparılan yenidənqurma işləri "Böyük Qayıdış" proqramının Şuşa rayonunun timsalında praktik nəticələrinin növbəti göstəricisidir. Burada yaradılan müasir infrastruktur, yaşayış şəraiti və sosial obyektlər onu deməyə əsas verir ki, Azərbaycan dövləti azad edilmiş əraziləri yalnız bərpa etmir, eyni zamanda həmin torpaqları müasir inkişaf modelinə uyğun şəkildə yenidən qurur.

Kənddə elektrik enerjisi şəbəkəsinin yenilənməsi, yeni transformatorların quraşdırılması, qaz və su xətlərinin çəkilməsi, rabitə infrastrukturunun bərpası və yolların abadlaşdırılması sübut edir ki, burada məqsəd sakinlərin firavan həyat sürməsi naminə tam funksional yaşayış mühitinin formalaşdırılmasıdır. İstirahət parkı və Bayraq meydanının yaradılması isə texniki bərpa ilə bərabər rəmzi və ictimai-mədəni məkanların da qurulduğunu göstərir ki, bu da dövlətimizin Böyük Qayıdış prosesini yalnız məskunlaşma deyil, identiklik bərpası kimi gördüyünü də ifadə edir. Kənddə 50 fərdi evin mərhələli bərpası, ilkin mərhələdə 17 evin istifadəyə verilməsi, artıq 14 ailə olmaqla, ümumilikdə, 64 nəfərin geri qayıtması "Böyük Qayıdış" proqramının kənd üzrə mərhələli şəkildə icra olunduğunu təsdiqləyir.

Səfərin ən mühüm siyasi kontekstlərindən biri onun Müstəqillik Günündə baş tutmasıdır. Prezident İlham Əliyev Böyük Qaladərəsi kəndinə qayıdan sakinlərlə görüşündə də bu məqama xüsusi toxunaraq müstəqilliyi böyük nemət, böyük nailiyyət kimi qiymətləndirdi. Sitat: ***"Müstəqillik – bu, böyük nemətdir, böyük nailiyyətdir. Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri, doğrudan da, müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik".***

***Ağır sınaqlardan tarixi zəfərə, işğaldan Böyük Qayıdışa***

Bəli, 108 il bundan öncə müstəqillik əldə edən Azərbaycan Xalq Cümhuriyyəti 23 ay sonra bu müstəqilliyini itirsə də, azadlıq ideyasını heç vaxt unutmadı. 1991-ci ildə yenidən dövlət müstəqilliyini bərpa edən ölkəmiz ilk illərdə hakimiyyətdə olanların naşılığı, səriştəsizliyi ucbatından ağır siyasi və ictimai sınaqlarla üz-üzə qaldı. 1993-cü ildə – ağır və taleyüklü bir dövrdə xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdı və bununla da cəmiyyətdə sabaha ümid və inam daha da gücləndi.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasi kursu və 2003-cü ildən etibarən Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və çevik diplomatik xətt nəticəsində Azərbaycan dayanıqlı şəkildə gücləndi. Bu məqsədyönlü dövlət siyasəti ölkənin beynəlxalq mövqelərini möhkəmləndirdi, Silahlı Qüvvələrin potensialını artırdı və cəmiyyət daxilində milli həmrəyliyin qorunub saxlanmasına şərait yaratdı. Həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi, 2020-ci ildə baş verən Vətən müharibəsi Azərbaycanın müstəqillik tarixində dönüş nöqtəsi oldu. 44 günlük savaş nəticəsində torpaqlarımız işğaldan azad edildi, xalqımızın illərlə yaşadığı həsrət sona çatdı. 2023-cü ildə həyata keçirilən lokal antiterror tədbirləri isə ölkəmizin bütün ərazisində suverenliyin tam təmin olunması ilə nəticələndi.

Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü və gələcəyə inamını əks etdirir. Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən dirçəlir, şəhər və kəndlər bərpa olunur, keçmiş məcburi köçkünlər öz doğma torpaqlarına qayıdırlar. Bütün bunlar Azərbaycanın müstəqil siyasət yürüdən, milli maraqlarını qətiyyətlə qoruyan və tarixi ədaləti təmin edən güclü dövlət olduğunu göstərir. Prezident İlham Əliyev mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndinə qayıdan sakinlərlə görüşündə müstəqillik tariximizin mühüm mərhələlərinə bir daha diqqət çəkdi və bugünkü qalib, müzəffər Azərbaycanın formalaşmasında xalqın sarsılmaz inamının həlledici rol oynadığını xüsusi olaraq vurğuladı: ***"Bu, bir daha göstərir ki, xalqımız böyük xalqdır. Əzab-əziyyətə baxmayaraq əyilmədi, iradəsini yerində saxladı və bir ümidlə yaşayırdı ki, gün gələcək və biz bu torpaqlara qayıdacağıq. Son illər ərzində – 2003-cü ildən bu yana keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə həm işğal dövründə, həm zəfərdən sonra bir daha əmin oluram ki, bizim xalqımız nə qədər əzəmətlidir, vüqarlıdır və yenilməzdir. Siz 30 il doğma diyarınızdan məhrum edilmişdiniz, amma ümidinizi itirmədiniz, iradənizi qırmadınız və inanırdınız ki, bu gün gələcək və gəldi".***

Bəli, Ali Baş Komandanın "dəmir yumruğ"u hesabına, xalqımızın birliyi, ordumuzun qüdrəti və şəhidlərimizin qanı-canı bahasına bu gün Azərbaycan öz tarixi torpaqlarında qalib dövlət kimi sarsılmaz nüfuzunu göstərir. Artıq heç bir qüvvə xalqımızı bu mövqedən geri çəkə bilməz. Əksinə, ölkəmizin hər keçən gün gücü, imkanları və bölgədəki siyasi çəkisi daha da artır. İşğal dövründə Ermənistan tərəfindən viran qoyulan şəhər və kəndlərin bərpası isə bu gün müasir Azərbaycanın qüdrətinin ən böyük göstəricilərindən biridir. Cəmi beş il ərzində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq işləri dünyanın diqqətini cəlb edir. Böyük Qayıdış prosesi ilə doğma yurdlarına dönən insanlar illər sonra yenidən öz torpaqlarında rahat və təhlükəsiz həyat qururlar. Bu, Azərbaycanın əldə etdiyi tarixi zəfərin ən böyük nəticələrindən biridir.

***İqtisadi dirçəliş, firavan həyat***

Prezident İlham Əliyevin mayın 28-də Qarabağa səfəri Xankəndi şəhəri baxımından da diqqətçəkən məqamlarla yadda qaldı. Dövlət başçısı əsaslı şəkildə yenidən qurulan Mədəniyyət Mərkəzinin açılışında iştirak etdi, burada yaradılan şəraitlə tanış oldu və görülən işlərin nəticələrinə baxış keçirdi.

Səfər zamanı Xankəndidə iş əlcəkləri istehsalı müəssisəsi də istifadəyə verilib. Bu müəssisə regionda sənaye potensialının genişləndirilməsi və yeni istehsal sahələrinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda Xocalı şəhərində "Qarabağ Tekstil Evi" MMC-nin açılışı olub ki, bu da yerli istehsalın inkişafına və məşğulluğun artırılmasına xidmət edir. Dövlət başçısı Xocalıda hərbi qulluqçular üçün inşa edilən fərdi yaşayış evlərində yaradılmış şəraitlə də tanış olub, burada hərbi qulluqçuların sosial təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərə baxış keçirib. Ümumilikdə, bu layihələr, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən sosial-iqtisadi dirçəlişin, infrastrukturun yenilənməsinin və yeni istehsal



müəssisələrinin yaradılmasının ardıcıl şəkildə davam etdiyini bir daha göstərir.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri həm beynəlxalq ictimaiyyətə, həm də Azərbaycan cəmiyyətinə mühüm mesaj verir: Qarabağ və Şərqi Zəngəzur artıq münaqişə zonası deyil, genişmiqyaslı quruculuq və inkişaf məkanına çevrilib. Bu səfərlər vasitəsilə dövlət başçısı bir daha nümayiş etdirir ki, Azərbaycan öz tarixi torpaqlarında uzunmüddətli və dayanıqlı inkişaf strategiyasını ardıcıl şəkildə həyata keçirir. Müstəqillik Günündə həyata keçirilən növbəti səfər isə özündə dövlətçilik ideyası çərçivəsində üç əsas xətti birləşdirir: tarixi yaddaş – itirilmiş və geri qaytarılmış torpaqlar, siyasi nəticə – ərazi bütövlüyünün, suverenliyin bərpası və praktiki reallıq – bərpa və məskunlaşma. Bu üçlük həm daxili birliyi gücləndirən, həm də beynəlxalq müstəvidə Azərbaycan dövlətinin mövqeyini möhkəmləndirən ən təsirli mesaj formalaşdırır. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bizim Qələbə elə mütləq Qələbə idi ki, burada artıq şəkk-şübhə qalmadı. Bayrağımız da Şuşada, ondan sonra Xankəndidə qaldırıldı və düşmən torpaqlarımızdan qovuldu. Ermənistan ordusu tamamilə darmadağın edilmişdir. Bu gün biz rahat yaşayırıq, qalib xalq kimi və qalib dövlət kimi. Bu, böyük qürur mənbəyidir".***

**Nail ƏSGƏROV**

# Sülhün müəllifi bizik

## *Bu gün biz sülh şəraitində yaşayırıq*

***"Bu gün dünyada bizə olan hörmətin bir çox səbəbləri var: həm qalib xalq kimi, həm müharibəni müharibə qanunlarına uyğun aparan xalq kimi, həm humanitar qaydalara riayət edən xalq kimi və qurub-yaradan xalq kimi"*** – bunlar Müzəffər Sərkərdənin sözləridir. Zəngilan şəhər sakinləri ilə görüşündə bunu xüsusilə qeyd etdi. Bəli, bu gün qürurla deyirik ki, artıq dünya bilir və anlayır ki, regionda Azərbaycanın diktəsi keçərlidir və onun tələbləri yerinə yetirilir. Biz bunu dahi rəhbərimizin yolunda addımlayaraq, Onun davamçısının ətrafında sıx birləşərək bacardıq. Bir vaxtlar burada – Naxçıvanda Ulu Öndərin xalqı ilə bir olub düyünlədiyi yumruq dəmirə dönüb düşmənin başında şimşək kimi çaxanda qoca dünya bu xalqın cəsarətinə bir daha heyran qaldı. Torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın beynəlxalq səviyyədə öz sözünü demək gücünü nümayiş etdirməsi ölkəmizin beynəlxalq uğurunun əsas göstəricisidir. Bu şanlı tarix əbədi olaraq bizim qəlbimizdə yaşayacaq, gələcək nəsillərə isə miras olacaq.

Həmin müharibədə dövlətimizin başçısının nümayiş etdirdiyi müharibə şəraitində davranış mədəniyyəti, bəlkə də, indiyə qədər heç bir qalib sərkərdə tərəfindən edilməmişdi. 30 il öncə xalqımıza qarşı amansızlığa və işğalda qalan torpaqlarımızda edilən vəhşiliklərə baxmayaraq, onlar Qarabağdan Ermənistana gedəndə bizim xalqın nümayəndələri erməni sakinlərə çörək, su verirdi. Müharibə əsirlərinə insan kimi davranılırdı. Baxmayaraq ki, hələ də onlarla Xocalı itkinimizdən xəbərsizik. Bütün bunlar bizim xalq olaraq fərqimizi göstərdi. Bizim məqsədimiz qan tökmək yox, torpağımızı azad etmək, insanlarımızı öz yurd yuvasına qaytarmaq idi. Bizim heç kimin dövlətində, ərazisində gözümüz olmayıb, olmayacaq da.

Uzun illər ATƏT-in Minsk qrupu və böyük güclər Qarabağın Azərbaycana qaytarılmasını süni şəkildə uzatmağa çalışsalar da, müharibə dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri Azərbaycanın iradəsini zəifləttmək istəsə də, bu heç bir nəticə vermədi. Azərbaycan dövlət başçısının siyasi zəkası, sarsılmaz iradəsi və xalqımızın daşmış səbri qarşısında bu təşkilatlar aciz qaldı. Nəticədə, Azərbaycan öz iradəsi ilə süni maneələri aşaraq Qarabağı azad etdi. Vətən savaşının qələbə ilə başa çatması Cənubi Qafqazda yeni eranın başlanması üçün əsaslı bir zəmin yaratdı. Regionda uzun zaman qapalı qalmış iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını şərtləndirən yeni şərait Cənubi Qafqazda bu zamanadək heç vaxt mümkün görünməyən sülh və əməkdaşlıq mühitinin artıq reallaşdırılmasına doğru atılmış əhəmiyyətli bir addım oldu.

Daim humanist və sülhsevər bir dövlət olan Azərbaycanın sülhpərvər mövqeyi, dünya dövlətləri ilə qurduğu yüksək səviyyəli diplomatik, etibarlı əlaqələri regionun stabil inkişafı və təhlükəsizliyinin təminatında ölkəmizin üzərinə düşən rolu uğurla yerinə yetirdiyini sübut edən amillərdən biridir. Dünya dövlətləri ilə yaratdığı münasibətlər xarici diplomatiyadakı uğurun göstəricisi olduğu kimi, Azərbaycan ərazisində yaşayan müxtəlif millətlərin nümayəndələrinin bir bayraq altında birləşməsi daxili sabitliyin və birliyin nümunəsi oldu.

Əlbəttə, 30 ildə – işğal illərində başımıza gətirilən müsibətlərin səbəbkarları ilə inteqrasiya prosesinin tez və asan baş verəcəyini düşünmək sadəlövhlük olardı. Azərbaycan tərəfi sülh və əməkdaşlıq prinsiplərinə əsaslanan ardıcıl addımlar atmaqda davam edir. Amma onu da unutmamalıyıq ki, Cənubi Qafqazda sülh və təhlükəsizliyin bərqərar olması üçün qarşılıqlı addımlar atılmalıdır. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bizim mövqeyimiz artıq uzun illər ərzində Ermənistan tərəfinə çatdırılıb. Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi, ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik".***

Əminik ki, nəyi nə zaman, necə etməyi hamıdan yaxşı bilən Azərbaycan Prezidentinin bu istəyinin də reallaşdırılmasının şahidinə çevrilib, Qafqaza sülh gətirən xalq olmağın şərəfini bir daha qazanacağıq. Qalib və sülhsevər xalq kimi əbədiyyən yaşayacağıq.

**Ramiyə ƏKBƏROVA**

*1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın, təxminən, 20 faizi işğal altına düşmüşdü. Bir milyon Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə salınmışdı. Xalqımıza qarşı hərbi cinayətlər törədilmiş, etnik təmizləmə siyasəti aparılmışdı. İllərlə sülh danışıqları aparılmasına, münaqişənin sülh yolu ilə həllinə çalışılsa da, düşmən öz mövqeyindən əl çəkmir, müntəzəm olaraq cəbhəboyu təxribatlar törədirdi. Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə öz çıxışlarında bildirmişdir ki, əgər danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək. Torpaqların işğalı ilə heç zaman barışmayan, sülh naminə illərdir, səbir edən Azərbaycan 2016-cı ildə Aprel zəfəri ilə düşmənə gücünü və nəyə qadir olduğunu göstərdi.*

# Ordumuzun Günnüt zəfəri



Aprel döyüşləri şanlı zəfərimizin ilk qığılcımları idi. Bu yolda şəhidlər versək də, insanlarımız heç zaman ruhdan düşmədi, əksinə, intiqam və zəfər hissi ilə yaşadılar.

26 illik fasilədən sonra bir bahar günü Şərur-Sədərək istiqamətində gedən yolçular "Günnüt" yazılmış yol nişanı ilə qarşılaşdılar. Aprel zəfərindən 2 il sonra keçirilən Günnüt əməliyyatı ordumuzun növbəti uğuru idi. Düşmən 2018-ci ildə Şərur-Sədərək istiqamətində növbəti təxribata əl atdı. Bununla mövqelərinin daha da irəliləyəcəyini düşünsə də, gözlənilməz mənzərə ilə qarşılaşdı. Hərtərəfli düşünülmüş və dəqiqliklə planlaşdırılmış tədbirlərin həyata keçirilməsi ilə bölmələrimiz 3-6 kilometr dərinliyə irəliləyərək daha əlverişli mövqelərdə möhkəmləndi. Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi əməliyyat nəticəsində azad edildi. Günnüt, Ağbulaq yaşayış məntəqələri ətrafındakı yüksəkliklər, Qızılqaya və Qaraqaya dağlarında yeni mövqelər ələ keçirildi. Ümumilikdə, 11 min hektara yaxın ərazi nəzarət altına alındı. Dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsi oldu. Sədərək şərab zavodu da düşmənin nəzarətindən çıxdı.

Paytaxt İrəvanı Ermənistanın cənubu və eləcə də həmin dövrdə işğal altındakı Qarabağ ərazisi ilə birləşdirən magistral yolun mühüm bir hissəsinin Əlahiddə Ümumqoşun Ordu bölmələrinin bir neçə istiqamətdə tam vizual nəzarəti altına keçməsi mühüm hərbi üstünlük demək idi. Ərazinin etibarlı müdafiəsi, bölmələrin manevr qabiliyyətinin yüksəldilməsi və təminat-təxliyə məqsədilə 50 kilometrdən artıq yol çəkildi, 60 kilometrdən artıq yararsız yollar bərpa edildi. 1600-dən çox müxtəlif növ minalar aşkar edilərək zərərsizləşdirildi. Strateji əhəmiyyətli Arpaçay su dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün ətrafdakı hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri quruldu. Günnüt əməliyyatı bir daha Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyətini, mənəvi-psixoloji hazırlığını ortaya qoydu.

2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan televiziyasına müsahibə verən Prezident İlham Əliyev də Günnüt əməliyyatını ordumuzun peşəkarlığının mühüm göstəricisi kimi xarakterizə etdi, böyük qələbəyə gedən yolda strateji əhəmiyyətli hərbi uğur olduğunu vurğuladı: ***"Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır".***

Rayon mərkəzindən 22 km məsafədə yerləşən Günnüt kəndi 1992-ci ildə ermənilər tərəfindən işğal olunmuş, əhalisi Mahmudkəndə köçməyə məcbur qalmışdır. 26 il sonra azad olunan Günnüt kəndində qarşılaşdığımız mənzərə isə bu idi: dağıdılmış evlər, binalar, bir də qəbiristanlıq. Məzar daşlarını belə uçuran düşmən Günnütdə də öz xislətinin izlərini buraxmışdı. İllər sonra günnütlülər öz doğmalarının məzarını ziyarət etdilər, səliqə-sahman yaratdılar. Günnüt zəfəri həm də düşmənlə bir addımlıqda yerləşən Sədərək rayonunda sakinlərin daha rahat hərəkətinə, təhlükəsiz yaşayışına, eyni zamanda azad olunan ərazilərdə lazımi təsərrüfat işlərinin görülməsinə şərait yaratdı, hektarla sahələr əkin dövriyyəsinə qatıldı.

Düşmən Günnüt zəfərini nə qədər gizlətməyə çalışsa da, öz məğlubiyyətini etiraf etməkdən qaçsa da, növbəti məğlubiyyət özlərinin uydurduqları "keçilməz" sədləri yardı. Və bütün planlarını alt-üst etdi. 2020-ci ildə bir daha öz "güc"ünü sınamağa çalışan düşmən qarşısında müzəffər Azərbaycan Ordusunu görüncə diz çökdü, xalq-dövlət-ordu birliyini görüncə geri çəkildi. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmən tapdağından azad edildi. 27 sentyabrdan başlanan Zəfər yürüşü 8 noyabr tarixində Şuşada Azərbaycan Bayrağının dalğalandırılması ilə taclandırıldı. Tarixi ədalət bərpa olundu. Antiterror əməliyyatı ilə düşmənin tör-töküntüləri Qarabağdan təmizləndi. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş oldu.

Bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəlir. "Böyük Qayıdış" proqramı uğurla icra edilir. Yaşayış binaları, məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları tikilir, həyat yenidən çağlayır.

İllər keçəcək, əsrlər ötəcək, tarix isə Azərbaycan xalqının həsrətinə son verən, ədaləti bərpa edən, Böyük Qayıdışa səbəb olanları, canı bahasına torpağı qoruyanları öz səhifələrində qoruyacaq, nəsillərdən-nəsillərə ötürəcək. Azərbaycan Ordusunun gücü həm də Günnüt zəfərinin timsalında göstəriləcək.

**Ruhiyyə RƏSULOVA**

# Müasir, qalib Azərbaycana uzanan dövlətçilik yolu



(əvvəli 1-ci səhifədə)

***Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, çox təəssüf ki, cəmi 23 ay yaşaya, üçrəngli bayrağını ucalda bildi. Bu kiçik zaman kəsiyində Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi qəbul edildi, Azərbaycan dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.***

***1918-ci il 7 dekabrda fəaliyyətə başlayan Azərbaycan Parlamenti bütün müsəlman Şərqində ilk belə dövlət strukturu idi. Şərqdə qadınlara ilk dəfə seçki hüququ verməsi və digər islahatlarla Azərbaycan Xalq Cümhuriyyəti insan hüquq və azadlıqları sahəsində bu gün belə bir çox ölkəni qabaqlamışdır.***

***Buna görə də Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız üçün tarixi hadisə adlandıraraq demişdir: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi".***

## Əbədi müstəqillik

Sovet işğalındakı 70 illik bir müddətdə Azərbaycan xalqı özünün azadlıq ideallarını, müstəqillik arzularını daim yaşatdı. Sovetlərin işğal maşını bu yurdun hər qarışının altını üstünə çevirsə də, azərbaycanlılar öz adət və ənənələrini, milliliyini qoruyub saxlaya bilib. Sovetlərin əcəl zənginin çalınması ilə 1991-ci ildə yenidən əldə etdiyimiz müstəqillik xalqımızın ötən əsrin əvvəllərində yaşadığı şərəfli tarixin, şüurlarda yaratdığı milli oyanışın, azadlıq eşqinin bəhrəsi idi. Müstəqilliyin bərpasından sonra ilk illərdə xalqımız bir sıra çətinliklərlə üzləşdi, ağır, məşəqqətli günlər yaşadı. 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı torpaq iddiası ilə başlayan münaqişə ölkəmizdə vəziyyəti son dərəcə ağırlaşdırdı. Azərbaycanın 20 faiz torpağı ermənilər tərəfindən işğal olundu. Azərbaycan xalqı tarixi bir sınaqla üz-üzə qaldı.

Xalqımızın şərəfli mübarizə, çoxsaylı qurbanlar bahasına qazandığı müstəqillik daha gərgin mübarizələrin başlanğıcı idi. Həmin illərdə ölkədə hərc-mərclik, özbaşınalıq, siyasi-iqtisadi tənəzzül baş alıb gedirdi. Müstəqilliyimizin ilkin mərhələsində – 1991-1993-cü illərdə müstəqilliyin, ərazi bütövlüyünün qorunub saxlanılması, müstəqil iqtisadi, daxili və xarici siyasətin müəyyənləşdirilməsi kimi vacib məsələlərin həlli əvəzinə hakimiyyət davası ilə məşğul olan dövlət rəsmilərinin məsuliyyətsizliyi ucbatından xarici təcavüz, ölkə ərazisinin 20 faizinin işğalı, yüzlərlə insanın şəhid olması, qaçqın və məcburi köçkün problemləri, siyasi qarşıdurmalar, separatçı meyillər daha da gücləndi. Elə bir təhlükəli vəziyyət yaranmışdı ki, Azərbaycan dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı.

Müstəqilliyimizin qorunub saxlanılması, qarşıya qoyulmuş məqsədlərə nail olmaq, milli həmrəylik və iradə nümayiş etdirmək üçün xalqı öz ətrafında sıx birləşdirə biləcək milli liderə böyük ehtiyac var idi. Həmin illərdə Naxçıvanda baş verənləri yaxından izləyən xalqın düşünən beyinləri bu çətin vəziyyətdən çıxış yolunu yalnız Heydər Əliyev dühasının göstərə biləcəyindən əmin idi. 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda hakimiyyətə gələn dahi siyasətçi Heydər Əliyev ilk olaraq müstəqillik, Azərbaycançılıq ideologiyasını milli şüurda və psixologiyada, xalqın iradəsində bərqərar etməyə nail oldu. İnsanlarda dövlətçilik, suverenlik, vətənpərvərlik sevgisi daha da gücləndi. Azərbaycançılıq ümummilli ideologiya səviyyəsinə qaldırıldı. Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi dövlət siyasətinin əsas istiqamətinə çevrildi.

## Möhtəşəm səfərbəredici amil – Ulu Öndərin zəngin irsi, ideyaları və tövsiyələri

Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı. Bunun da nəticəsində 1994-cü il mayın 12-də ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilərək insan hüquqlarının, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yarandı. Xalqın qarşılaşdığı bütün çətinliklər aradan qaldırılmağa başlanıldı. İctimai-siyasi sabitləşmə, demokratik prinsip və təsisatlar yaradıldı.

Dövlətimizin qarşılaşdığı problemlərin aradan qaldırılması, iqtisadiyyatın inkişaf yoluna qədəm qoyması Azərbaycanın xarici siyasətdə də daha fəal, qətiyyətli addımlar atmasına şərait yaratdı.

Gündən-günə güclənən Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin səsi dünyanın ən yüksək tribunalarından gəlməyə başladı. Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müasir Azərbaycan dövlətinin qurucusu olmaq şərəfini qazandı. Xalqımız müstəqillik əldə etdikdən sonra Ulu Öndərin qayğısı ilə Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri bərpa edildi, tarixi öyrənildi. Ulu Öndərin zəngin irsi, ideyaları və tövsiyələri bu gün də müasir cəmiyyətimizin inkişafının nəinki ideya mənbəyidir, həmçinin möhtəşəm səfərbəredici amildir. Heydər Əliyev təkcə tarixin axarını dəyişmədi, O, dövlətçiliyi yenidən qurdu. Vətən uçurumun kənarında suallar qarşısında dayananda O gəldi və cavab oldu; aydın, əmin və əbədi bir cavab.

Ümummilli Liderin təlatümlərdən, təhlükələrdən çıxararaq qurub-yaratdığı Azərbaycan indi Prezident İlham Əliyevin rəhbərliyi altında bütün dünyaya möhtəşəm yüksəliş dinamikası nümayiş etdirir. Ulu Öndərin yaratdığı quruculuq şəraiti indi Azərbaycanın real siyasi və iqtisadi həyatında təzahür edir. Xalqı narahat edən bütün problemlər aradan qaldırılır. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanılır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına eyni dərəcədə diqqət yetirilir.

## Dövlətçilik tariximizə qızıl hərflərlə yazılan qələbə

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi inkişaf tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb.

Ulu Öndərin özü qədər inandığı, dahi siyasətçinin uğurlu yolunun davamçısı İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasət nəticəsində 2020-ci il dövlətçilik tariximizə qızıl hərflərlə yazıldı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğalçı Ermənistan üzərində möhtəşəm qələbə qazanaraq xalqımızın 30 illik həsrətinə son qoydu, suverenliyimiz bərpa edildi. Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il oktyabrın 15-də imzaladığı "Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən mayın 28-i Müstəqillik Günü elan edilib. Artıq beş ildir ki, xalqımız bu günü xüsusi fərəh hissi ilə qeyd edir. Çünki Azərbaycan Respublikası Vətən müharibəsindəki qələbədən sonra bu əlamətdar günü qalib kimi, bütöv Azərbaycan olaraq qeyd edir. Bu tarixi qələbələr Azərbaycan xalqının şanını-şöhrətini özünə qaytardı. 44 günlük müharibədə igid Azərbaycan oğulları öz qəhrəmanlıqları ilə nəinki bugünkü nəsil üçün, eyni zamanda gələcək nəsillər üçün daim fəxr edib, qürur duyacağımız Zəfər yolu açıb Vətənimizi bötövləşdirdi. Bu ədalət dövlətimizi təkcə Qafqazda yox, dünyada söz sahibinə çevirdi. Dövlət başçısının da dediyi kimi: ***"Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir".***

Xalqımızın müsəlman aləmində ilk demokratik respublika yaratdığı həmin tarixdən 108 il ötür və biz qürurla deyirik ki, biz ulu babalarımızdan bizə əmanət qalan Azərbaycanı bütövləşdirməyə nail olduq. Onların xatirəsi qarşısında başıdik, alnıaçıq dayanır, şanlı tariximizlə fəxr edirik. Prezident İlham Əliyevin dediyi kimi: ***"Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur... Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır".***

Ramiyə ƏKBƏROVA

# SALAM, NAXÇIVAN!

*“Şəhərsalma və Memarlıq İli” və memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 900 illiyinə*

**Salam, gözəl yurdumun vəfalı insanları,
Salam, daş heykəllərim, qədim abidələrim.
Əsrlərdir, sənətin keşiyində durmusuz,
Salam, sizi tarixə verən qızıl əllərim.**

**Salam, memar Əcəmi, ustadım, sənətkarım,
Sənin naxışlarının sorağında gəzirəm.
Tarixə ad yazdırıb, tarix yazır Naxçıvan,
Səmərqənddə, Daşkənddə əl izini görürəm.**

**Salam, Möminə xatun, sən qadın ucalığım,
Şəmsəddin Eldəgizin etibarlı qadını!
Əcəmi Əbubəkr təkrar yaşatdı səni,
Dünyaya car eylədi o möhtəşəm adını.**

**Salam, Yusif Küseyir, mömin, səxavət kanı,
Adına “Ata-baba günbəzi” ucaltdılar.
Yurdumun sinəsində əli qızıl olanlar
Adınla fəxr etdilər, adına ad qatdılar.**

**“Nəbi yurdu”, “Nuhdaban” sirr dolu addım səsim,
Salam, Nuhun gəmisi, salam, Nuhun türbəsi.
Köhnəqala tərəfə yolum düşdü bu səhər,
Yol göstərir hər kəsə peyğəmbər əfsanəsi.**

**Salam, qoç heykəllərim, Açıq Səma Muzeyim,
Xan sarayı – keçmişin, xanlığın nişanəsi,
“Buzxana” buz tarixin əbədi saxlanc yeri.
İmamzadə inamın, imanın adil səsi.**

**Nəimi Xanəgahda Nəsimidən danışır,
Səlcuqilərdən qalıb Əlincənin qalası.
On dörd il sinə gərib Əmir Teymur zülmünə,
Sonunda zəfər çalıb boz qurdun qurd balası.**

**Bura yolu düşmüşdü Şah Xətai babamın,
“Nə gözəl yerdi”, – deyib, qurdu uca taxtını.
Arazda sərin külək vurduqca İsmayılı,
Bağlanıb Nuh yurduna, sevdi o Şahtaxtını.**

**Daşlaşmış tariximdə – qayaların üstündə
Babəkin, Koroğlunun ayaq izləri vardır.
Burada Bəhruz fırçası naxışlayıb sənəti,
Cəlilimin, Arazın ölməz sözləri vardır.**

## Ulu Öndər Heydər ƏLİYEV:

**“*Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir.*”**

**Salam, Cavid əfəndi, sözümün şah misrası,
Daşa yazılan sözün ömrü də uzun olur.
Məqbərədə dörd ürək sarılıb bir-birinə,
Sahib çıxsam tarixə, tarix də bizim olur.**

**Salam, memar qardaşım, daşa can verən ustad,
Naxçıvanın ürəyi əsərinlə öyünür.
Əsrlərdən yadigar ulu yurdun qapısı,
İslamın söz mülkünün nəğməsilə döyünür.**

**Naxçıvanın tarixi yazılıb sətir-sətir,
Təbrizimin adına ucalıb bir göydələn.
Öndərin abidəsi salamlayır hər kəsi,
Çiçəklərlə yad edir yurduma qonaq gələn.**

**Salam olsun Duzdağa, süfrəmin dad yerinə,
O da bir ziyarətgah, o bir duz yaddaşımdır.
Bir tikə duz-çörəyin min il haqq-salamı var,
Salamı itirməyən dostumdur, qardaşımdır.**

**Salam, Qarabağlarım – Quti xatun türbəsi,
Bura hökmdarların ətək salan yeridir.
Ordubad mədrəsəsi, Qeysəriyyə bazarı,
Qədim Cümə məscidi Şərqin inciləridir.**

**Məscidlərin, pirlərin sayı yox, hesabı yox,
Körpülər, mağaralar qədim yurd nişanəsi.
İki qütbü yan-yana görənlər heyrət edir,
Qədim-yeni tarixin daşlardan gəlir səsi.**

**Salam, memar Əcəmi, salam, doğma şəhərim,
Sözdən bir qala qurdum sənin ehtişamına.
Bir sənət əsərisən Şərqin qapısında sən,
“Salam, Naxçıvan!” – dedim, bunlar düşdü yadıma.**

Təranə ARİFQIZI
*Şair-publisist,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*












# 28 May – Müstəqillik Gününə həsr edilmiş “İşığa doğru” adlı inklüziv konsert proqramı təşkil olunub





Mayın 26-da Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin benefisiarlarının iştirakı ilə “İşığa doğru” adlı inklüziv konsert proqramı təşkil olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları və muxtar respublika sakinləri iştirak ediblər.

Konsert proqramının bədii hissəsindən əvvəl mərkəzin benefisiarlarının müxtəlif mövzularda hazırladıqları əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Proqram çərçivəsində mərkəzin musiqi terapiyası bölməsinin benefisiarlarının və şəhid övladlarının ifasında “Sığmazam”, “Dahi”, “Azərbaycan”, “Naxçıvan” musiqi nömrələri təqdim olunub, həmçinin “Qarabağ” rəqs kompozisiyası nümayiş etdirilib.

Həssas kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyası və yaradıcı potensiallarının inkişafına dəstək məqsədi daşıyan konsert iştirakçılar tərəfindən maraq və alqışlarla qarşılanıb.

Sonda benefisiarlarla görüşən səlahiyyətli nümayəndə onları təbrik edib, uğurlar arzulayıb, xatirə fotosu çəkdirilib.










# Ali Məclisin yaz sessiyası başa çatıb



Mayın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə 2026-cı il yeddinci çağırış Ali Məclisin yaz sessiyasının sonuncu plenar iclası keçirilib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ – “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin üçüncü oxunuşda müzakirəsi aparılıb.

Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verdikdən sonra qanun səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyası dövründə fəaliyyəti ilə bağlı çıxış edən Bəxtiyar Məmmədov sessiya ərzində görülən qanunvericilik işləri, qəbul olunan hüquqi aktlar, vətəndaş müraciətləri və deputat fəaliyyətləri barədə ətraflı məlumat verib. Həmçinin Ali Məclisin nümayəndələrinin ölkədaxili və beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirakı diqqətə çatdırılıb.

Deputatlardan Rza Xudiyev, Elmar Rzayev, Asəf Orucov və Canməmməd Canməmmədov çıxış edərək yaz sessiyası dövründə Ali Məclisin fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb, 28 May – Müstəqillik Günü və Qurban bayramı münasibətilə xalqımızı təbrik ediblər.



Sonra Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclas iştirakçılarını və muxtar respublikanın bütün sakinlərini qarşıdan gələn 28 May – Müstəqillik Günü və Qurban bayramı münasibətilə təbrik edərək fəaliyyətlərində uğurlar arzulayıb.

Ardınca Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin 2026-cı il yaz sessiyasının sonuncu plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Avtomobil yolunda cari təmir işləri icra olunur

Naxçıvan-Ordubad magistral avtomobil yolu istiqamətində cari təmir işləri icra olunur. “Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxsin mətbuat xidmətindən verilən məlumata görə, tərtib olunmuş qrafikə uyğun olaraq həyata keçirilən tədbirlər çərçivəsində yolların müəyyən hissələrində deformasiyaya uğramış köhnə asfalt-beton örtüyü xüsusi texnika vasitəsilə frezlənərək ərazidən kənarlaşdırılır.

Görülən təmir-bərpa işləri nəticəsində yolun hərəkət hissəsindəki mövcud problemlər tam aradan qaldırılır, nəqliyyat vasitələrinin maneəsiz və təhlükəsiz hərəkəti təmin edilir.

İşlərin tez bir zamanda yekunlaşdırılması üçün ərazilərə lazımi sayda canlı qüvvə və texnika cəlb olunub.



# 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Bütöv Vətənin xoşbəxt uşaqları

*Uşaqlar hər evin, hər ailənin bəzəyi, yaraşığı, hər bir dövlətin, millətin sabahı, gələcəyidirlər. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması istiqamətində aparılan dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərimiz daim uşaqlara böyük qayğı və sevgi ilə yanaşır, onların lazımi səviyyədə yetişməsi, təhsil alması üçün məqsədyönlü tədbirlər həyata keçirirdi. Gələcəyimizi etibar edəcəyimiz uşaqların təlim-tərbiyəsi ilə məşğul olan müəssisələrin yaradılmasını diqqət mərkəzində saxlayırdı.*

*"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə millətimizin, dövlətimizin taleyi bundan asılı olacaq. Mən həyatımın bu gününü, gələcəyini, xoşbəxtliyini, səadətini məhz uşaqlara diqqət və qayğıda görürəm", – deyən görkəmli dövlət xadiminin müəyyən etdiyi vəzifələr bu gün dövlət başçısı tərəfindən uğurla davam etdirir.*

*Muxtar respublikamızda da bu siyasət uğurla həyata keçirilir, uşaqların əlverişli sosial mühitdə böyüməsi diqqətdə saxlanılır, təlim-tərbiyəsinin daha da təkmilləşdirilməsi istiqamətində mühüm, məqsədyönlü tədbirlər həyata keçirilir. Elə bütün bunların nəticəsidir ki, bu gün azərbaycanlı uşaqların səsi yüksək tribunalardan gəlir. Onların qazandığı müvəffəqiyyət hər kəsi sevindirir. 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə onlardan bir neçəsi ilə həmsöhbət olduq.*

## Həkim olmaq onun ən böyük arzusudur




Naxçıvan Qarnizonu tam orta məktəbinin V sinif şagirdi İlqar Bayraməliyev gələcək arzularından böyük həvəslə danışdı.

O bildirdi ki, məktəbin ictimai həyatında və müxtəlif tədbirlərdə iştirak etməyi çox sevir. Onun üçün məktəb yalnız təhsil məkanı deyil, həm də dostluqların, arzuların və ilk uğurların formalaşdığı bir dünyadır. Riyaziyyat fənninə olan marağını xüsusi vurğulayaraq qeyd etdi ki, bu sevginin yaranmasında onun müəlliminin rolu böyükdür. Deyir ki, müəllimin hər dərsi sadə və maraqlı şəkildə izah etməsi fənnə olan sevgisini daha da artırıb. Şagird müxtəlif bilik yarışları və olimpiadalarda iştirak etdiyini, bu yarışlarda qazandığı təcrübənin ona həm özünəinam, həm də daha çox çalışma həvəsi verdiyini bildirdi. O, "Lütfizadə" adına olimpiadanın final mərhələsinə vəsiqə qazanmasını həyatında önəmli bir addım kimi dəyərləndirir və gələcəkdə də belə yarışlarda iştirak edərək daha böyük uğurlar əldə etmək istədiyini söylədi. İlqar gələcək arzularından da danışaraq həkim olmaq istədiyini bildirdi. Onun sözlərinə görə, insanlara kömək etmək, onların sağlamlığına fayda vermək ən böyük arzularından biridir. Bu məqsədə çatmaq üçün daha çox çalışdığını və hər gün özünü inkişaf etdirməyə səy göstərdiyini qeyd etdi.

## Bayrağımızı zirvələrdə dalğalandıracağam

İstedadlı, əzmkar və gələcəyi parlaq uşaqlardan biri də 13 yaşı olan Mövlan Seyidovdur. 8 nömrəli məktəbin 7-ci sinfində təhsil alan Mövlan kiçik yaşlarından idmana, xüsusilə də döyüş sənətlərinə böyük maraq göstərərək qısa müddət ərzində əldə etdiyi mühüm nailiyyətlərlə həm məşqçilərinin, həm də idman ictimaiyyətinin diqqətini cəlb etməyi bacarıb. İdmana hobbi kimi yox, həyat tərzi kimi yanaşan gənc idmançı, iştirak etdiyi hər bir yarışda yüksək texniki bacarıq, daxili intizam və sonsuz əzmkarlıq nümayiş etdirir. Yaşının az olmasına baxmayaraq, rinqdə göstərdiyi yetkinlik onun gələcəkdə böyük çempion olacağından xəbər verir.

Mövlan Seyidovun idman karyerasının ilkin səhifələri artıq qızıl hərflərlə yazılmağa başlayıb. O, paytaxtda keçirilən Bakı şəhər birinciliyində yüksək əzmkarlıq göstərərək üçüncü yerə layiq görülüb və medalçılar sırasına daxil olub. Ölkə hüdudlarından kənarda da gücünü sübut edən Mövlan Türkiyədə təşkil olunan beynəlxalq yarışda kəmər döyüşünün mütləq qalibi adını qazanıb. Eyni zamanda Naxçıvan-



da baş tutan turnirdə isə öz çəki dərəcəsində bütün rəqiblərini tam üstünlüklə geridə qoyaraq fəxri kürsünün birinci pilləsinə qalxıb. Mövlan, həmçinin "Şuşa kuboku" və "Xocalı kuboku" kimi nüfuzlu turnirlərdə ardıcıl qələbələr qazanıb. Onun qazandığı bu çoxsaylı nailiyyətlər, eyni zamanda Azərbaycanda böyüməkdə olan yeni nəslin idmana, sağlam həyat tərzinə olan kütləvi marağının göstəricisidir. Daim öz üzərində çalışan, asudə vaxtını idmana həsr edən və verilən tapşırıqlara maksimum məsuliyyətlə yanaşan Mövlan qarşısına böyük hədəflər qoyub. Məqsədi gələcəkdə Avropa, dünya çempionatlarında və olimpiya oyunlarında Azərbaycanı layiqincə təmsil etməkdir.

## O rənglərin dili ilə danışır

Sağlamlıq imkanlarının məhdud olmasına baxmayaraq, daxilindəki böyük güc, təhsilə olan həvəs və sənət sevgisi ilə hər kəsə örnək olan Şəmsiyyə Ələkbərova 7 aprel 2014-cü ildə Naxçıvan şəhərində anadan olub. Şəmsiyyə hazırda həm orta təhsilini, həm də incəsənət yolundakı addımlarını böyük bir əzmlə paralel şəkildə davam etdirir. O, Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin 6-cı sinfində oxuyur, dərslərinə olan məsuliyyəti və çalışqanlığı ilə seçilir. Şəmsiyyə, eyni zamanda 2 nömrəli Uşaq Musiqi və İncəsənət Mək-



təbində skripka aləti üzrə təhsil alan çox istedadlı bir şagirddir. Skripkanın incə və çətin notlarına böyük bir sevgi ilə yiyələnən bu balacanın dünyası təkcə musiqi ilə də bitmir.

Şəmsiyyə, həmçinin rəsm çəkməyi çox sevir, daxili dünyasını, xəyallarını rənglərin dili ilə vərəqlərə köçürür və eyni zamanda böyük bir coşqu ilə rəqslə məşğul olur. Onun həm məktəb həyatında göstərdiyi bu böyük məsuliyyət, həm də incəsənətin müxtəlif sahələrindəki çoxşaxəli istedadı artıq öz bəhrələrini verməkdədir. Şəmsiyyənin qazandığı diplom və təşəkkürnamələr onun qazandığı uğurların ən gözəl sübutudur.

O, həyata sıx bağlılığı ilə bizə bir daha göstərir ki, daxildəki istedadın, təhsil eşqinin və yaşamaq sevincinin qarşısında heç bir fiziki məhdudiyyət sədd çəkə bilməz.

## Arzum Şuşada "Qarabağ şikəstəsi"ni səsləndirməkdir

Müsahibimiz musiqi sənətinə kiçik yaşlarından könül verən Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin və 2 nömrəli Uşaq Musiqi və İncəsənət məktəbinin şagirdi Namiq Vəliyevdir.



O, 18 iyul 2014-cü ildə Naxçıvan şəhərində anadan olub. Musiqiyə və xanəndəliyə marağı 5 yaşından başlayıb. İlk dəfə səhnədə Bəhram Nəsibovun "Qarabağ" mahnısını ifa edib və o gündən musiqi həyatının ayrılmaz hissəsinə çevrilib. Namiq deyir ki, musiqiyə sevgisi ailəsindən gəlir: "Hazırda əsas diqqətimi xanəndəliyə yönəldirəm. Bununla yanaşı, piano sənətini də öyrənirəm. Musiqi və İncəsənət Məktəbində də təhsil alıram. Vaxtımı düzgün planlaşdırmağa çalışıram, həm dərslərimə, həm də musiqiyə zaman ayırıram. Müxtəlif tədbirlərdə çıxış etmiş, fərqli diplom və fəxri fərmanlarla təltif olunmuşam. Ən son olaraq Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş muxtar respublika müsabiqəsində I yerə layiq görülərək diplomla təltif olunmuşam. Solo konsertim də baş tutub. Səhnəyə çıxanda həm həyəcan, həm də böyük sevinc hiss edirəm. Tamaşaçıların alqışları isə mənə daha çox motivasiya verir."

***1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə qəzetimizin qonağı olan bu uşaqlar bütöv, qalib Vətənimizin azad səması altında böyüyən övladlarımızdan bir neçəsidir. Onlar qələbənin şahidi, bu əmanətin gələcək qoruyucuları, bütöv Vətənin başı üzərində dalğalanan şanlı zəfər bayrağını gələcəkdə daha da yüksək zirvələrdə dalğalandıracaq davamçılardırlar.***

**"Şərq qapısı"**



# Dağların qoynundakı möcüzə: Əshabi-kəhf



Naxçıvanın sıldırım qayalıqları arasında zamanın dayandığı bir məkan var. Bura insanı hər bir addımında dünyəvi qayğılardan uzaqlaşdıran, ruhun dərinliklərinə boylanmağa çağıran müqəddəs Əshabi-kəhf ziyarətgahıdır. Günəş dağların arxasından boylanıb qayalıqları qızılı rəngə boyayanda bu qədim mağaranın ətrafında tam fərqli mənəvi canlanma başlayır. Bura gələnlərin məqsədi nə, sadəcə, səyahət, nə də adi bir gəzintidir. Bura üz tutanlar əsrlərdir, sönməyən bir inanc işığının izinə gəlirlər.

Qayalıq cığırlarla yuxarıya doğru addımladıqca ətrafı bürüyən sükut, əslində, bəşəriyyətin ən uca mənəviyyat zirvələrindən birini gözlər önünə sərir.

Səhərin ilk saatlarından başlayaraq ziyarətgah yolunda hərəkətlilik hiss olunur. Ailələr, yaşlılar, gənclər, uşaqlar bu müqəddəs məkana doğru üz tutur. Kimisi dua etməyə, kimisi niyyət tutmağa, kimisi isə, sadəcə, qəlbinin sakitliyini tapmağa gəlir. Dağların qoynunda yerləşən Əshabi-kəhfə qalxdıqca insan gündəlik həyatın yorğunluğundan uzaqlaşır, ruhən başqa bir aləmə qədəm qoyur.

Buradakı sakitlik, qayaların arasından gələn meh, dağların əzəməti, insanların duaları bir-birinə qarışaraq fərqli bir mənəvi ab-hava yaradır. İnsan özünü burada daha saf, daha rahat hiss edir. Ziyarətə gələnlər inanırlar ki, bu müqəddəs məkanda edilən dualar qəbul olar, tutulan arzular qəlblərdə işığa çevrilər.

Əshabi-kəhf haqqında əsrlərboyu müxtəlif rəvayətlər danışılıb. Bu rəvayətlər insanların yaddaşında müqəddəs bir inanc kimi yaşayır. Hər daşında bir tarix, hər qayasında bir sirr gizlənən bu məkan insanı düşünməyə vadar edir. Buraya gələn hər kəs sanki keçmişlə bu gün arasında görünməz bir körpü qurur. İnsanlar burada yalnız dua etmir, həm də öz daxili aləmləri ilə baş-başa qalırlar.

Ziyarətgahın pillələri ilə qalxan insanların kimisi səssizcə dua edir, kimisi gözlərini uzaqlara dikib düşüncələrə dalır, kimisi də ailəsi ilə birlikdə bu mənəvi anın hüzurunu yaşayır.

Əshabi-kəhf həm də insanların mənəvi bağlılığını yaşadan bir dəyərdir. Müasir həyatın səs-küyü içində insanlar bəzən daxili sakitliklərini itirirlər. Belə məkanlar isə insanlara öz mənəviyyatına qayıtmaq imkanı yaradır. Bura gələnlər bir neçə saatlıq olsa belə dünyanın qayğılarından uzaqlaşaraq ruhən dincəlirlər.

Həftəsonları burada yaranan mənzərə xüsusilə diqqət çəkir. Müxtəlif yaş qruplarından olan insanların eyni məkanda bir araya gəlməsi, duaların səmaya yüksəlməsi, insanların bir-birinə hörmət və səbirlə yanaşması Əshabi-kəhfin mənəvi gücünü daha aydın göstərir. Burada insan tək olmadığını hiss edir. Hər kəsin ürəyində bir arzu, bir ümid, bir dua yaşayır.



Dağların qoynunda ucalan bu müqəddəs məkan əsrlər keçsə də, insanları özünə çəkməyə davam edir. Çünki Əshabi-kəhf inancın, səbirin və mənəvi bağlılığın simvoludur. Bura gələn hər kəs özü ilə bir rahatlıq, bir mənəvi hüzur aparır və yenidən bu müqəddəs ünvana qayıtmaq arzusu ilə ayrılır.

**Elnurə CƏFƏROVA**



## Qurban bayramı – paylaşmağın, mərhəmətin və birliyin yaşayan dəyərləri

İnsanları bir-birinə yaxınlaşdıran, xeyirxahlıq hissini gücləndirən, ailələri və qəlbləri bir araya gətirən bayramlar arasında Qurban bayramının özünəməxsus yeri var. Bu müqəddəs bayram yalnız bir dini mərasim kimi deyil, həm də əsrlərboyu yaşadılan milli-mənəvi dəyərlərimizin, paylaşmaq mədəniyyətinin, mərhəmət və birlik duyğusunun ifadəsi kimi qəbul olunur. Qurban bayramı insanların bir-birini daha çox xatırladığı, ehtiyac sahibinə əl uzatdığı, sevincin bölüşdükcə artdığı xüsusi bir mərasimdir. Bayramlar hər zaman cəmiyyətin mənəvi güzgüsü sayılıb. İnsanların bir-birinə münasibəti, böyüyə hörmət, kiçiyə qayğı, qohumluq bağları məhz belə günlərdə daha aydın görünür. Qurban bayramı isə bu baxımdan fərqli məna daşıyır. Çünki bu bayramın ruhunda yalnız qeyd etmək deyil, paylaşmaq, yalnız sevinmək deyil, başqasını sevindirmək anlayışı dayanır.

Bu bayramın əsas dəyəri yalnız qurbanın kəsilməsi ilə məhdudlaşmır. Əsl mahiyyət həmin nemətin bölüşdürülməsində, insanların bir-birinə dayaq olmasında, ehtiyac sahiblərinin unudulmamasında özünü göstərir. Kəsilən qurbanın bir hissəsinin ailəyə saxlanılması, bir hissəsinin qohum-qonşulara bölüşdürülməsi, digər hissəsinin isə imkansız ailələrə çatdırılması cəmiyyətimizdə mərhəmət və yardımlaşma ənənəsinin canlı nümunəsidir. Qurban bayramının ən böyük fəzilətlərindən biri insanlarda paylaşmaq duyğusunu gücləndirməsidir. Çünki bölüşülən nemətin bərəkəti də artır. Bayram günlərində insanlar yalnız öz süfrəsini deyil, başqalarının süfrəsini də düşünür. Elə ailələr var ki, müxtəlif səbəblərdən çətinlikləri yaşayır. Məhz belə günlərdə aparılan qurban payı həmin evə yalnız ərzaq deyil, sevinc, diqqət və ümid aparır. Bir ailənin qapısına gələn bayram payı, bəzən onların üzündə uzun müddət unudulmayan təbəssüm yaradır.

Bu müqəddəs günlər həm də mərhəmət hissinin daha çox ön plana çıxdığı zamanlardır. İnsanlar yaşlıları ziyarət edir, tənha yaşayanların halını soruşur, yardıma ehtiyacı olanlara kömək etməyə çalışır. Bəzən bir xoş söz, bir diqqət, bir kiçik sovqat belə insanın könlünü isitməyə kifayət edir. Qurban bayramı məhz insanlara birbirinin halına yanmağı, paylaşmağın gözəlliyini və birlikdə olmağın dəyərini xatırladır. Xalqımızın yaşatdığı gözəl ənənələr Qurban bayramına xüsusi rəng qatır. Bu günlərdə qız-gəlinlərin evinə qurban payı aparılması, bayram sovqatlarının göndərilməsi illərdir, qorunan ailə dəyərlərinin davamı kimi yaşadılır. Xüsusilə yeni ailə qurmuş qızlara, nişanlılara göndərilən qurban payı yalnız bir bayram hədiyyəsi deyil, eyni zamanda ailə bağlılığının, doğmalığın və diqqətin ifadəsi sayılır. "Sən bizim üçün əzizsən, unudulmamısan" mesajı daşıyan bu gözəl adət ailələr arasındakı münasibətləri daha da möhkəmləndirir.

Bayram günlərində evlərdə yaranan xüsusi ab-hava da Qurban bayramının ayrılmaz hissəsidir. Süfrələr açılır, ailə üzvləri bir araya gəlir, uzaqda olan doğmalar ziyarət edilir, uşaqların sevinci evlərə ayrı bir rəng qatır. Hiss olunan bayram əhvalı, qapı-qapı aparılan paylar, qohum görüşləri, yaşlıların duaları və uşaqların sevinc dolu baxışları bu günləri daha mənalı edir. Müasir həyatın sürətli ritmi insanları bəzən bir-birindən uzaq salsa da, belə müqəddəs günlər doğmaları yenidən bir masa arxasında toplayır. Küsülülər barışır, münasibətlər istiləşir, insanlar bir-birinə vaxt ayırır. Bayram süfrəsi ətrafında yalnız yemək paylaşılmır, həm də sevgi, hörmət, qayğı və xatirələr bölüşülür. Bu bayramın ən gözəl tərəflərindən biri də uşaqların yaddaşında isti xatirələr qoymasıdır. Bayram hazırlığı, qonaq gəlişləri, ailə görüşləri, böyüklərin xeyir-duaları uşaqlar üçün unudulmaz anlara çevrilir. Beləcə, paylaşmaq, mərhəmətli olmaq, böyüyə hörmət etmək, ehtiyac sahibini düşünmək kimi mənəvi dəyərlər yeni nəslə ötürülür.

Qoy Qurban bayramı hər evə sevinc, hər süfrəyə ruzi-bərəkət, hər qəlbə mərhəmət gətirsin. Paylaşmaq ənənəsi, xeyirxahlıq duyğusu, milli adət-ənənələrimiz gələcək nəsillərə sevgi ilə ötürülsün, bu bayram insanların qəlbində daim birlik və doğmalıq ünvanı kimi yaşasın.

**Günay HACIYEVA**



# Qəlbi yurd yeri, doğma torpaq sevgisi ilə yaşayanlar

## Ləkətağda hər daş, hər ağac, hər bulaq doğmalıq hissi oyadır

Kəndləri ağuşuna alan dağların arasından keçən dolanbac yollar, yolboyu insanı valeh edən mənzərələr, yamyaşıl çəmənliklər, zirvəsi dumana bürünmüş Haçadağ, Əlincə qalası və sıldırımlı qayalar. Bu yol bizi yalçın qayaların arasından boylanan Günəş şüalarının çəmənləri yaşılın ən parlaq çalarlarına çevirdiyi bir məkana – sərhəd kəndimiz Ləkətağa aparır. Kəndə gedən hər yol başqa bir mənzərəyə açılır, təbiət sanki yaz aylarında öz rənglərini daha səxavətlə paylayıb ucqar kəndimizə. Ləkətağda bahar təkcə təqvimin dəyişməsi deyil, bura üçün yaz təbiətin yenidən doğulması, həyatın ritminin yenidən sürətlənməsidir həm də. Kəndin sərhəd bölgəsində yerləşməsi isə bura ayrı bir ruh verir. Sərhəd kəndi sakit görünsə də, bu sakitliyin içində həyatın özünəməxsus ahəngi, hər daşın, hər cığırın bir xatirəsi var. Dağların ətəyində yerləşən bu kənd həm təbiətin gözəlliyini, həm də sərtliyini özündə birləşdirir. Eyni zamanda qədimliyi ilə seçilir.



Ceyhun MƏMMƏDOV

Günəşin işığı dağların zirvəsinə toxunanda, duman dərələrin sinəsinə çəkilməyə başlayanda Ləkətağa çatırıq. Dağların qoynunda gizlənən, yamacları yaşıl xalçaya bürünən kənd sanki yazın ən gözəl səhərlərindən birini açır. Adi mənzərədir, bəlkə, yerli sakinləri üçün. Guruldayan çayın səsi yanında olan insanı eşitməyə belə macal vermir. Çay kənarında yaşlı qadının çöl pencərləri yığdığını görürük. Məlum olur ki, ilin bu ayında sakinlər daha çox su kənarında olan uşqun yığırlar, təklif edir bizə də. Dadına baxdıqdan sonra anlayırsan ki, burada insanlar təbiətlə birgə yaşayır.

Ümumiyyətlə, dağların ətəyində yerləşən sərhəd kəndləri həmişə insana başqa bir hiss yaşadır. Burada təbiətin əzəməti ilə insanın dözümlülüyü bir-birinə qarışır. Uca dağlar kəndi sanki qoruyur, sərhəd isə bu yerlərdə xüsusi bir məna kəsb edir. Ləkətağın da özünəməxsus bir sakitliyi var. Burada zaman daha asta axır, amma daha mənalı hiss olunur. Dağların havası sakinlərin qəlbi kimi təmiz və safdır. Bəzən düşünürsən, bəlkə, yazın gəlişi bu insanlara da yeni nəfəs gətirib. "Bizim adətimizdir", – deyir Nabat Məhərrəmova. Bu səmimilik həm də Ləkətağda həyatın təbii ahəngini yaradır: "İlin bu fəslində kənd camaatı təbiətin bəxş etdiyi dağ pencərlərini yığmaq üçün dağlara, çay kənarlarına gedir. Hətta bizim belə bir adətimiz də var ki, gələn qonağı da dəvət edirik. Sizlərlə də gedib yığa bilərik (gülür). Burada hər bir insan torpağına bağlıdır, torpaqla nəfəs alır. Ləkətağın ən gözəl özəlliyi də məhz budur".

Ləkətağın dar, bəzən daşlı küçələri ilə addımlayanda hər həyətin öz həyat hekayəsi olduğunu anlayırsan. Kimisi həyətyanı sahəsini süpürür, kimisi məktəbdən gələn uşağını qarşılayır, kimisi isə bağında təsərrüfatı ilə məşğul olur. İnsanların doğmalığı gözlərindən oxunur, salamlar səmimi, baxışlar doğmadır bu kənddə. Bu insanlar zəhmətkeş və qürurludurlar. Onlar üçün torpaq yalnız yaşadıqları yer deyil, həm də müqəddəs əmanətdir, burada insanlar torpağın qədrini yaxşı bilirlər. Yaz fəsli onlar üçün həm də böyük bir tədarükün, zəhmətin başlanğıcıdır, zəhmət mövsümüdür. İnsanlar səhər tezdən əkin sahələrinə yollanır, torpağı becərir, bağ işləri ilə məşğul olurlar. Əsas məşğuliyyətləri maldarlıqdır. Kəndin hər tərəfində həyatın hərəkəti hiss olunur. Bütün bu zəhmətin içində bir də qəribə, fərqli rahatlıq var. Kənd sakini Sərdar Məhərrəmov deyir ki, bu torpaqlarda həyat çətin olsa da, bərəkət heç vaxt əskik olmayıb, rahatdırlar. Şəhərin səs-küyü yoxdur, sakitliyə öyrəşiblər burada. Həm də dağların ətəyində məskunlaşmaları onların ürəyini rahatladır: "Bu il qış bir az sərt keçdi, amma yaz gələn kimi dağların da canına istilik düşür, torpaq canlanır".

Kəndin mərkəzində olan əzəmətli ceviz ağacları və onun ətrafında qaynayıb-qarışan uşaqlar sərhəd kəndinin qədimliyini və gələcəyə parlaq baxışını özündə tərənnüm edir. Burada uşaqlar baharın gəlişini telefon və ya hər hansı elektron vasitələrdən yox, torpağın istisindən, yeni çiçək açan ağaclardan müşahidə edirlər. Məktəbi kiçikdir bu kəndin, 60-a yaxın şagirdi var. Məktəbin həyətində oynayan uşaqların gülüşü, şagirdlərin dərs zamanı gələn səsi elə kəndlə yanaşı, müəllimlərin də gələcək səsidir. Sərdar müəllim deyir ki, şagirdlərin göstəriciləri yüksəkdir: "Xüsusilə sərhəd bölgələrində müəllimlərin şagirdlərə aşıladığı ilk məqam Vətəndir. Ucqar kənd olmasına baxmayaraq, Ləkətağda təhsil alan şagirdlərimizin göstəriciləri hər zaman yüksək olub. Buradan çıxacaq hər bir şagirdin uğuru elə məktəbin, bu torpağın uğurudur". Müəllimin sözlərindən sonra düşünürsən: Dağların arasından boylanan bu kənd, bəlkə, xalqın mənəvi yaddaşıdır. Bunu yaşatmaq isə yalnız o kənddə təhsil verən müəllimin yox, hamımızın borcudur.

Qışın sərt sınağından yeni çıxmış kəndin dağ yolları ilə yaşayış məskənindən uzaqlaşırıq. Ləkətağın o məşhur, yerli sakinlər tərəfindən "fontan" adlanan bulağını görmək üçün...

Kəndin mənzərəsinə fərqli bir ruh, fərqli bir can bəxş edən əsas element isə onun tən ortasından axıb keçən çayıdır. Dağların zirvəsində hələ də ağ örpək görünsə də, ətəklərindəki buzlar əriyərək kəndin ortasından keçən Dəmirli çayını indi daha coşqun, daha səsli axmağa "vadar" edir. Sıldırım qayaların arasından süzülüb gələn, büllur kimi təmiz olan bu sərin su kəndi iki hissəyə ayırsa da, insanları və təbiəti bir araya gətirən əsas bağ hesab edilir Ləkətağda. Çay kənarı boyunca düzülən qocaman ağaclar suya doğru əyilərək sanki rəqs edirlər. Yazın gəlişi onları da rahatladıb. Əsən sərin meh və ağacların xışıltısı çayın gurultusuna qarışır, ortaya insan ruhunu dincəldən təbii bir melodiya, simfoniya çıxır sanki. Uca dağların qoynundan gələn çay təkcə təbiətin bir parçası deyil, həm də kənd insanlarının həyat mənbəyidir. Çayın axarı kimi bu kəndin həyatı da sakit, saf və təbiətlə ahəng içində davam edir. Çayın mənzərəsini seyr etmək üçün ən gözəl yer isə kəndin mərkəzində olan köhnə körpüdür. Körpünün üzərinə çıxıb ətrafa boylandıqda bənzərsiz bir mənzərə açılır: yaşıl yamaclar, dumana bürünmüş başıqarlı dağlar, çay daşlarına çırpılaraq köpüklənən suyun yaratdığı ecazkar mənzərə.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Səməd Əliyevlə söhbətləşəndə öyrənirik ki, bu çay, sadəcə, vizual bir gözəllik deyil, həm də kəndin nəbzidir. Çay olmasaydı, nə bu yamyaşıl bağlar olardı, nə də kəndin bu qədər bərəkəti. Yaz aylarında coşub-daşan, yayda isə sakitcə şırıldayan bu su əsrlərdir, bu torpaqlara həyat paylayır. Odur ki, bu suyun səsi ilə böyüyən insan harada yaşasa da, bir gün yenə doğma yurda qayıdır.

...Kiçik Qafqaz dağlarının ətəyində, Dəmirli çayının başlanğıcında kiçik, amma müalicəvi xüsusiyyətə malik olan mineral bulağa çatırıq. Dağların qoynundan çıxan saf və şəffaf su illərdir, kənd sakinlərinin şəfa mənbəyi hesab olunur. Yerli sakinlər inanırlar ki, bu bulağın suyu həm yorğunluğu alır, həm də bir çox xəstəliklərə fayda verir. Yay aylarında Naxçıvanın digər bölgələrindən belə insanlar buraya gələr, bulağın sərin və şəfalı suyundan içər, təbiətin bəxş etdiyi bu nemətdən faydalanarlar. Bulağın "fontan" adlandırılmasına gəlincə, yerli sakinlər deyir ki, bir vaxtlar bu mineral su 2-5 metr yüksəkliyə kimi qalxırmış.

Kənddə keçirdiyin zaman ərzində anlayırsan ki, əsl gözəllik təbiətlə insanın vəhdətindədir. Həyat çətin olsa da, burada yaşayanların qəlbi yurd yeri, doğma torpaq sevgisi ilə doludur. Ləkətağda hər daş, hər ağac, hər bulaq doğmalıq hissi oyadır. Sanki burada zaman daha yavaş axır, insan isə həyatın həqiqi dəyərini daha yaxşı anlayır. Öz bəsitliyini və saflığını qoruyub saxlayan kəndin dağ yolları ilə aşağıya doğru enərkən, geriyə dönüb son dəfə baxırıq. Dağların arasından bizə əl edən o kiçik kənd insanların yaddaşında və qəlbində böyük bir dünya kimi yaşayır. Bir şey anlayırıq: həyat sadədir burada, amma daha səmimidir. Kəndin ruhunda həm təbiətin gözəlliyi, həm də Vətən sevgisi yaşayır. Bəlkə də, elə buna görə bu dağ kəndinin yolu unudulmur. Unudulmamaq arzusu ilə...











# Şəhərin axşam ritmini yaşadan park





Yazın çiçək rayihəli günlərində hər kəsin yolunu saldığı Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı bizim də üz tutduğumuz məkanlardan biri oldu. Günəş batdıqdan sonra parkda yanan işıqlar, attraksionlardan yüksələn uşaq səsləri və ailələrin səmimi söhbətləri burada xüsusi ab-hava yaradır. Naxçıvan sakinlərinin "Şəhərcik" adlandırdığı bu məkanda bizi qarşılayan yeni qurğular isə xüsusilə uşaqların sevincinə səbəb olur.

Rəngarəng işıqlarla bəzədilən ərazi axşam saatlarında daha canlı görünür. Buraya gələnlər üçün park təkcə istirahət məkanı deyil, həm də ailəvi vaxt keçirmək üçün rahat ünvan hesab olunur.

Attraksionların ətrafında yaranan canlanma uşaqların sevincini daha da artırır. Kimisi avtomobil attraksionlarında yarışır, kimisi yellənçəklərdə əylənir, bəziləri isə dondurma və şirniyyat köşklərinin önündə dayanaraq yaz axşamının xoş anlarını yaşayır.




Parka gələn şəhər sakinləri də burada yaradılan şəraitdən məmnun olduqlarını bildirirlər. Onların sözlərinə görə, ən çox axşam saatlarında park həm uşaqların əyləncəsi, həm də ailələrin rahat istirahəti üçün əlverişli məkana çevrilir.

Skamyalarda əyləşən yaşlı insanlar, gəzintiyə çıxan ailələr və attraksionlardan yüksələn gülüş səsləri parkın axşam mənzərəsini tamamlayır. Ətrafdakı işıqlandırma və səliqəli mühit isə burada istirahət edənlərdə xoş təəssürat yaradır.

Günün yorğunluğunu geridə qoymaq, ailəsi ilə vaxt keçirmək və uşaqların sevincini bölüşmək istəyənlər üçün Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı bu il də şəhərin ən canlı ünvanlarından biri olaraq qalır.

✍ **Zəhra VƏLİYEVA**






## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi
### *2026-cı il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul elan edir*

| | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | |
|---|---|---|---|---|---|---|
| | | Doktorant hazırlığı üzrə qəbul planı | | | | |
| | | | o cümlədən: | | | |
| | | cəmi | büdcə hesabına | | ödənişli əsaslarla | |
| | | | əyani | qiyabi | əyani | qiyabi |
| Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə | | | | | | |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | | |
| İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə | | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | | 1 | | |
| **Cəmi:** | | **2** | | **2** | | |

**Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:**

*– müəssisə rəhbərinin adına ərizə;*
*– kadrların şəxsi qeydiyyat vərəqi;*
*– tərcümeyi-hal;*
*– 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
*– iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
*– iş yerindən xasiyyətnamə;*
*– çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;*
*– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
*– şəxsiyyəti təsdiq edən sənədin surəti;*
*– xarici dil bilikləri üzrə beynəlxalq sertifikatı olanlara (IELTS, TOEFL, TestDaf, DALF əgər varsa) və ya xarici dildən keçid balını toplayanlara Dövlət İmtahan Mərkəzi tərəfindən verilən təsdiqedici sənəd.*

Fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənədlər 19 may-9 iyun 2026-cı il tarixlərdə hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat $9^{00}$-dan $18^{00}$-dək AMEA Naxçıvan Bölməsinin əsas binasında, Elm və təhsil şöbəsində qəbul edilir.

***Ünvan: Heydər Əliyev pr. 76***
***Əlaqə telefonu: 545-34-96***
***e-mail: gulvira_abbasova@mail.ru***

## Naxçıvan cüdoçularından daha biri liqa yarışında fərqlənib



Bakı şəhərində cüdo üzrə U17 və U14 yeniyetmələr arasında liqa yarışları keçirilib. Abşeron Olimpiya İdman Kompleksində keçirilən turnir idmançıların reytinq cədvəlinin formalaşmasında önəmli rol oynayır.

Yarışlarda Naxçıvan Muxtar Respublikasından 2 məşqçi və 9 idmançının iştirakı qeydə alınıb. Naxçıvan təmsilçilərindən ikisi mükafatçılar sırasına düşüb.

Xəbər verdiyimiz kimi, 17 yaşadək qızların yarışında 40 kq çəki dərəcəsində çıxış edən Ləman Bağırova gümüş medal qazanmağa müvəffəq olub. Mayın 24-də keçirilən cüdo üzrə 14 yaşadək yeniyetmələr arasında liqa yarışının III turunda isə Yasəmən Əliyeva 57 kq çəkidə bürünc medal qazanıb. Hər iki idmançı Naxçıvan Uşaq-Gənclər və İdman Məktəbinin şagirdləridir.

## "Sağlam şəhər turu" aksiyası keçirilib



Mayın 26-da Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində velosipedlə "Sağlam şəhər turu" aksiyası keçirilib. Sağlam həyat tərzinin təbliği, gənclər arasında fiziki aktivliyin təşviqi, ekoloji mədəniyyətin formalaşdırılması və şəhərin memarlıq irsinin tanıdılması məqsədilə təşkil olunan aksiyaya, ümumilikdə, 60-a yaxın iştirakçı qoşulub.

Tura Naxçıvan Tibb Kollecinin önündən start verilib. Şəhərin müxtəlif küçə və prospektlərini əhatə edən velotur zamanı iştirakçılar həm fiziki fəallıq nümayiş etdirib, həm də Naxçıvan şəhərinin müasir infrastrukturu, abadlaşdırılmış əraziləri və memarlıq nümunələri ilə yaxından tanış olmaq imkanı əldə ediblər.

Turun sonunda yenidən başlanğıc nöqtəsinə qayıdan iştirakçılar, təxminən, 7,5 kilometr məsafə qət ediblər.

### *İtmişdir*

Babayev Alim Malik oğlunun adına olan MOO-04955 markalı, 810240 nömrəli avtomobil qoşqusunun sənədi itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Xanağa kənd sakini Sadiqov Saleh Əli oğlunun adına olan JN-133B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: RƏMZİ TAHİRLİ
Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*
Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*
Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 103
*Nömrəyə məsul:* Ceyhun Məmmədov, Rafiq Təhməzov, Elnurə Cəfərova
*Dizayner:* Həbibə Allahverdiyeva
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*